# Ağdaşda yubiley tədbiri





Martın 3-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində AYB Ağdaş bölməsi, rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə tanınmış şair Mirdamət Əzizin 65 illiyinə həsr olunmuş tədbir keçirilib.

Yubiley tədbirində Ağdaş rayon İcra Hakimiyyətinin, YAP Ağdaş rayon təşkilatının, Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin, Ağdaş rayon Təhsil idarəsinin rəhbərliyi və kollektivi, şairin ailə üzvləri, yaxın dostları və qohumları iştirak ediblər.

İlk söz alan AYB Ağdaş bölməsinin sədri Fəxrəddin Əsəd şair haqqında xatirələrini dilə gətirmiş, qonaqları - AYB yaradıcılıq məsələləri üzrə katib İlqar Fəhmi və AYB bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin sədri Əsəd Cahangiri tədbir iştirakçılarına təqdim edərək uğurlar arzulamışdır.

Sonda sərgiyə baxış keçirilib.